## Liderlik və birgə iş fəaliyyəti

1. Manila düzəlişlərinə əsasən "Liderlik və birgə iş fəaliyyəti" kursu hansı tarixdən etibarən dənizçilərin hazırlanması üzrə bütün tədris müəssələrində həyata keçirilməlidir?
Düzgün cavab: 01 iyul 2012-ci il

2. "Liderlik və birgə iş fəaliyyəti" kursu DHDNÇ-78 Beynəlxalq Məcəlləsinin hansı bölmələrinin tələblərinə uyğun həyata keçirilir?
Düzgün cavab: DHDNÇ-78 Beynəlxalq Məcəlləsinin A-II/1, A-II/2, A-III/1, A-III/2, A-III/3 və A-III/6 bölmələri

3. "Liderlik və birgə iş fəaliyyəti" kursu kimlər üçün nəzərdə tutulub?
Düzgün cavab: Komanda heyəti üçün

4. Azərbaycan Respublikası neçənci ildən etibarən Beynəlxalq Əmək Təşkilatının (BƏT) üzvüdür?
Düzgün cavab: 12 may 1992-ci il

5. Azərbaycan Respublikasının "Ticarət Gəmiçiliyi Məcəlləsi" hansı tarixdən qüvvədədir?
Düzgün cavab: 22 iyun 2001-ci il

6. SOLAS-74/78 hansı gəmi tiplərinə şamil olunur?
Düzgün cavab: Beynəlxalq reyslər edən bütün gəmi tiplərinə şamil edilir

7. MARPOL-73/78 neçə əlavəsi hazırda qüvvədədir?
Düzgün cavab: 6

8. Liderlik dedikdə nə başa düşülür?
Düzgün cavab: Liderlik bir nəfərin ümumi məqsəd naminə bir qrup insana təsirinə əsaslanan prosesdir

9. Bilik dedikdə nə başa düşülür?
Düzgün cavab: Hər hansı vəziyyətdə daha effektiv qərar qəbul etmək üçün informasiya

10. Bacarıq dedikdə nə başa düşülür?
Düzgün cavab: Təlim və təcrübə zamanı göstərilən məharət

11. Komanda üzvlərinin bilik və bacarıqlarını aşağı qiymətləndirən və qərarların qəbul edilməsində komanda üzvlərinin təkliflərini nəzərə almayan rəhbərlər hansı liderlik tipinə aiddirlər?
Düzgün cavab: Avtokratik liderlik

12. Kitabla işləyən, qayda və prosedurlara dəqiqliklə əməl edən liderlər hansı liderlik tipinə aiddirlər?
Düzgün cavab: Bürokratik liderlik

13. Bürokratik liderlik tərzinə daha uyğun olanı hansıdır?
Düzgün cavab: Texnika ilə əlaqəli işlər, qapalı məkanlara daxil olduqda, təhlükəli yük əməliyyatları və ya yüksəkliklərdə işləmək kimi ciddi təhlükələrlə əlaqəli riskli işlər və maliyyə əməliyyatları

14. İnsanlar hansı tərz liderə həvəslə tabe olurlar və populyar bir siyasətçi kimi onun dalınca gedirlər?
Düzgün cavab: Xarizmatik liderlik

15. Hansı tərz liderlər son qərarın tam məsuliyyəti onun üzərində olmasına baxmayaraq, qərarların qəbul edilməsi prosesinə komandanı dəvət edirlər?
Düzgün cavab: Demokratik və ya iştirakçı liderlik

16. Müdaxilə etməyən rəhbərlik (mane olmayan) tərzi hansı halda məqsədəuyğundur?
Düzgün cavab: Komandada mütəxəssislər və öz vəzifələrini yüksək səviyyədə icra etmək qabiliyyətinə malik insanlar işlədiyi halda

17. Hansı tərz liderlik avtokratik şəkildə tapşırığın yerinə yetirilməsinə yönlənmişdir?
Düzgün cavab: Tapşırıq yönümlü liderlik

18. Bu tərz liderlik tapşırıq yönümlü liderliyin tam əksidir. Hansı tərz liderlər komandanın təşkil olunmasında və inkişafinda onun bir üzvü kimi fəaliyyət göstərir?
Düzgün cavab: İnsan yönümlü və ya münasibət yönümlü liderlik

19. Gəmidə ənənəvi olaraq birmənalı şəkildə kapitanın əmrlərinə tabe olmaq tərzini bilmək və qəbul etmək hansı liderlik tipinə aiddir?
Düzgün cavab: Transakt liderlik (əməliyyat,müqavilə)

20. Hansı tərzdə liderlər komandalarını vəziyyətin dəyişdirilməsinin gələcəkdə səmərəli olacağına inandırır və onları buna ilhamlandırır?
Düzgün cavab: Transformal liderlik

21. Hansı tərz liderlər sırf komandanın tələblərinə uyğun olaraq hərəkət edir və öz fikirləri olmur?
Düzgün cavab: Xidmətkar liderlik

22. Kapitan hansı məsələlər üzrə cavabdehlik daşıyır?
Düzgün cavab: Gəminin təhlükəsiz istismarı, gəmi heyətinin, yükün təhlükəsizliyi və çirklənmənin qarşısının alınması üzrə

23. Kapitanın vəzifəsinə nə aiddir?
Düzgün cavab: Qəza vəziyyətlərinə daimi hazırlıq və riskin bütün növlərinin yaranmasının qarşısının alınması

24. Heyət üzvlərindən kimlərə təhlükəli yüklərlə işləməyə icazə verilir?
Düzgün cavab: Yalnız xüsusi hazırlıq keçmiş heyət üzvlərinə

25. Qəza şəraitində gəmini ən axırıncı kim tərk edir?
Düzgün cavab: Gəmi kapitanı

26. Təlim məqsədilə keçirilən yanğın həyacanında gəmi heyətinin hansı hissəsi iştirak edir?
Düzgün cavab: Bütün heyət

27. Gərginlik altında olan avadanlıqlarda baş vermiş yanğını söndürərkən ilk növbədə nə etmək lazımdır?
Düzgün cavab: Qəza bölməsini və avadanlıqları cərəyandan ayırmaq

28. Yanğın zamanı köməyə gəlmiş qrupa kim rəhbərlik edir?
Düzgün cavab: Gəmi kapitanı

29. Təhlükəli yüklərin daşınması üzrə gəmi komissiyası hansı tərkibdə yaradılır?
Düzgün cavab: Kapitan, kapitanın baş köməkçisi, baş mexanik və bosman

30. Xəsarətin yetirilməsi ilə bağlı yolverilməz riskin yoxluğu necə adlanır?
Düzgün cavab: Təhlükəsizlik

31. Potensial ziyan mənbəyi dedikdə nə nəzərdə tutulur?
Düzgün cavab: Təhlükə

32. Ziyan dedikdə nə nəzərdə tutulur?
Düzgün cavab: İnsan sağlamlığına yetirilmiş xəsarət və ya zədə, əmlaka və ətraf mühitə dəymiş zərər

33. Nəticələr vacibliyinə görə hansı qaydada sıralanır?
Düzgün cavab: Pozitiv və neqativ

34. Ehtimal dedikdə nə nəzərdə tutulur?
Düzgün cavab: Hadisənin baş verə bilmə ölçüsü

35. Riskin qiymətləndirilməsi dedikdə nə nəzərdə tutulur?
Düzgün cavab: Riskin təhlilinin və dəyərləndirilməsinin ümumi prosesi.

36. Riskin analizi dedikdə nə nəzərdə tutulur?
Düzgün cavab: Riskin mənbəyinin və kəmiyyətcə qiymətinin təyin edilməsi üçün məlumatın sistematik olaraq istifadə edilməsi

37. Riskin neçə kateqoriyası var?
Düzgün cavab: 3

38. Aşağı səviyyəli risklərdə tələb olunan fəaliyyət hansıdır?
Düzgün cavab: Əlavə nəzarət tələb olunmur, nəzarətin saxlanması məqsədi ilə monitorinqin keçirilməsi

39. Orta səviyyəli risklərdə tələb olunan fəaliyyətlər hansıdır?
Düzgün cavab: Riskin azaldılması üzrə tələb olunan tədbirlər və nəzarət üsulları lazımı vaxtda yerinə yetirilməlidir

40. Çox yüksək səviyyəli riskdə tələb olunan fəaliyyətlər hansıdır?
Düzgün cavab: Risk azalana qədər işə başlamaq və ya işə davam etmək olmaz. Riskin azalmadığı təqdirdə bütün tədbirlər qadağan olunur

41. Dayazlıqda və məhdud görünüş şəraiti səbəbindən yaranan qəzalara hansı aiddir?
Düzgün cavab: Gəminin saya oturması, toqquşma, saya toxunma

42. Deleqasiya nədir?
Düzgün cavab: İşlərin daha aşağı səviyyəli menecerə ötürülməsi

43. Aşağıdakılardan hansı şirkətdaxili əlaqənin idarə edilməsi prinsipi deyil?
Düzgün cavab: Gizli konfliktləri təsvir etmək

44. Bədənimizi yoran vərdişlərə aşağıdakılardan hansılar aid deyil?
Düzgün cavab: Rejimə riayət etmək

45. Əmniyyətli idarəetmə haqqında Beynəlxalq Məcəllə (ISM code) hansı sahəyə aid olan sənəddir?
Düzgün cavab: Gəmilərin istismarının əmniyyətli idarə edilməsi və çirklənmənin qarşısının alınması sahəsinə aid olan sənəddir

46. MARPOL - 73/78-nin hansı əlavəsində neft qalıqları ilə dənizin çirkləndirilməsinin qarşısının alınması qaydaları göstərilir?
Düzgün cavab: 1

47. Effektiv ünsiyyət qaydası hansıdır?
Düzgün cavab: Qarşınızda duran insanın diqqətini cəlb etməkdir

48. Effektiv ünsiyyət qurmaq üçün hansı amilin varlığı zəruridir?
Düzgün cavab: Uyğunlaşma

49. Aşağıdakılardan hansı düzgündür?
Düzgün cavab: İnsanlar arxasınca getdikləri insanı lider, tabe olduqları insanı isə menecer kimi qəbul edirlər

50. Tabeçiliyinizdə olan 2 işçinin arasında işlə bağlı münaqişə yaranmışdır. Aşağıdakılardan hansı ən optimal həll yolu ola bilər?
Düzgün cavab: Münaqişə tərəflərini barışdırmaq və münaqişəyə gətirib çıxaran səbəbi aradan qaldırmaq istiqamətində fəaliyyət göstərmək

51. Neftlə çirkləndirmə üzrə ziyana görə mülki məsuliyyət haqqında beynəlxalq konvensiya necə adlanır?
Düzgün cavab: CLC-69

52. Menecerə xas olan xüsusiyyətlər hansıdır?
Düzgün cavab: İnzibatçıdır, əmr edər, sistemə əsaslanaraq nəzarət edər

53. Motivasiya nədir?
Düzgün cavab: İşçini işləməyə ruhlandıran amillər

54. Məqsədlərə görə idarəetmə nədir?
Düzgün cavab: Təşkilatı bölmələr və fərdi üzvlər üçün ümumi məqsədləri spesifik məqsədlərə çevirməyi hədəfləməkdir

55. Liderin yeganə aləti nə hesab olunur?
Düzgün cavab: Ünsiyyət

56. Aşağıdakılardan hansı liderliyin göstəricisi deyil?
Düzgün cavab: İşə lazımsız müdaxilələrin edilməsi

57. İdeal rəhbər kimdir?
Düzgün cavab: Həm lider, həm də menecer xüsusiyyətlərinə malik olandır

58. Dənizdə gəmilərin toqquşmasının qarşısının alınması haqqında qaydaları müəyyən edən Beynəlxalq Konvensiya necə adlanır?
Düzgün cavab: COLREG–72

59. Hansı motivasiya prinsipi deyil?
Düzgün cavab: Fərdilik

60. Şirkətin siyasəti kim tərəfindən hazırlanır?
Düzgün cavab: Şirkətin rəhbəri

61. Konflikt nədir?
Düzgün cavab: Münaqişədir

62. Aşağıdakılardan hansı münaqişənin idarə edilməsi yolu deyildir?
Düzgün cavab: Haqsız olanı müəyyən etmək və cəzalandırmaq

63. Aşağıdakılardan hansı münaqişənin müsbət həlli yolu deyildir?
Düzgün cavab: Münaqişə tərəflərini üzləşdirmək

64. Gəmi heyəti kimlərdən ibarətdir?
Düzgün cavab: Kapitandan, digər komanda heyəti üzvlərindən və sıravi heyətdən

65. Gəmidə motorçu kimə tabedir?
Düzgün cavab: İkinci mexanikə

66. Münasibət qurmaq üçün ilk növbədə nələrə diqqət yetirilməsi zəruridir?
Düzgün cavab: Duruş, səs tonu, hərəkətlər